**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ŞÖHRƏT RÜSTƏM OĞLU MUSTAFAYEV**

# İRƏVAN XANLIĞININ OSMANLI İMPERİYASI İLƏ ƏLAQƏLƏRİ

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**Bakı – 2017**

*Dissertasiya Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, prof. **C.M.Mustafayev**
tarix üzrə fəlsəfə doktoru **G.C.Nəcəfli**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_16__" ____06_______2017-ci il tarixli iclasında, saat______ keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

**Avtoreferat** "___"__________2017-ci il tarixdə göndərilmişdir

D.01.161 Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İrəvan xanlığının tarixi Azərbaycanın xanlıqlar dövrü tarixinin – XVIII əsrin II yarısı – XIX əsrin 20-ci illəri – ən zəngin səhifələrindən birini təşkil edir. Çünki öz inkişaf xüsusiyyətlərinə görə digər Azərbaycan xanlıqlarından fərqlənməyən İrəvan xanlığının ərazisinə daxil olan torpaqlar qədim Azərbaycan türk tayfalarının yaşadığı tarixi bir ərazi olmuş və ayrı-ayrı dövrlərdə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur.

Bu gün Azərbaycan Respublikasına qarşı tarixi torpaqlarımızla bağlı irəli sürülən yersiz və əsassız ərazi iddiaları, bədnam erməni tarixçiləri tərəfindən qərəzli, saxta "tarixi" məlumatların yayılması İrəvan xanlığının qonşu dövlətlərlə, o cümlədən Osmanlı imperiyası ilə əlaqələrini araşdırmağı zəruri edir.

Azərbaycanın zəngin və qədim dövlətçilik ənənələrini məhv etməyə çalışan keçmiş sovet imperiyası Azərbaycanın Türkiyə Cümhuriyyəti ilə yaxınlaşmasından həmişə ehtiyat etmiş və ehtiyat etdiyi qədər də özünün burada yeritdiyi müstəmləkəçilik siyasətini ört-basdır etməyə çalışmışdı.

İrəvan xanlığının qonşu dövlətlərlə, o cümlədən Osmanlı imperiyası ilə münasibətləri nə Azərbaycanın sovet dövrü tarixşünaslığı və mənbəşünaslığında, nə də dövlət müstəqilliyi bərpa edildikdən sonra yaranan müasir Azərbaycan milli tarixşünaslığında ayrıca tədqiqat obyekti olmamışdır.

Azərbaycanın sovet dövrü tarixşünaslığında İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri tarixinin araşdırılmamasının, həmin mövzunun ayrıca tədqiqat obyekti kimi elmi dövriyyəyə cəlb olunmamasının səbəblərindən biri yuxarıda qeyd edilən səbəbdirsə, digər bir səbəb isə uzun müddət Osmanlı mənbələrinin elmi dövriyyəyə cəlb edilməməsi ilə bağlıdır. Bu səbəbdən də sovet tarixşünaslığında yanlış olaraq Azərbaycan xanlıqlarının xarici siyasət xəttinin araşdırılması zamanı onların çar Rusiyasına "könüllü birləşmə" konsepsiyası kök salmışdır. Təbii ki, həmin konsepsiya Sovet Rusiyasının maraqlarına uyğun olaraq məqsədli şəkildə Azərbaycan tarix elminə də qəbul etdirilmişdir. Ümumtürk birliyinin yaranması təhlükəsi ilə üzləşməkdən ehtiyat edən sovet imperiyası hər sahədə olduğu kimi, tarix elmini də öz mənfur siyasətinin təsiri altında saxlayırdı. Qeyd olunan həmin konsepsiyanın formalaşması da məhz həmin məqsədə xidmət edərək, İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələrinin araşdırılması işini uzun müddət kölgədə qoymuşdur. Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Osmanlı Arxivinin (BOA) "Hattı-Humayun" fondundan yeni-yeni sənədlərin əldə edilməsi də İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətlərinin tarixini ayrıca bir tədqiqat işi kimi elmi ictimaiyyətə çatdırmağı zəruri edir və bu baxımdan adı çəkilən mövzunun araşdırılması mühüm aktuallıq kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın xronoloji çərçivəsi XVIII əsrin ikinci yarısı – 1828-ci illəri əhatə edir. Bu dövr Nadir şah imperiyasının dağılmasından sonra Azərbaycanın xanlıqlara və sultanlıqlara parçalanması, eləcə də bu şəraitdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyi planlaşdıran Rusiya imperiyasının ölkəmizin şimalını işğal etməsi illərini əhatə edir. 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanması ilə İrəvan xanlığı da digər Şimali Azərbaycan xanlıqları kimi Rusiya imperiyasının müstəmləkəsinə – əyalətinə

çevrilir.

**Mövzunun öyrənilmə səviyyəsi**. Azərbaycan SSR-in Türkiyə ilə yaxınlaşmasından ehtiyat edən SSRİ hökuməti Azərbaycan tarixinin müəyyən məsələlərini, həmçinin Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərini öyrənməyə konkret qadağalar qoymuşdur. Bu səbəbdən də Azərbaycan SSR-in sovet dövrü tarixçiləri əsas diqqəti Azərbaycan xanlıqlarının Rusiya ilə münasibətləri tarixinin araşdırılmasına yönəltmişdilər.

Azərbaycan tarixşünaslığında ölkə alimləri Osmanlı imperiyası ilə əlaqələrinin araşdırılması zamanı TC BOA-nın sənədlərindən faydalanaraq kifayət qədər elmi nəticələr əldə etmişlər.[1] Lakin İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri tarixi BOA-nın sənədləri üzrə ayrıca tədqiqata cəlb olunmamışdır. Bu məqsədlə "Hatti-Humayun" sənədləri ilk dəfə olaraq tərəfimizdən tədqiq olunur.

Araşdırılan mövzu ilə bağlı tarixşünaslıqda ayrıca tədqiqat işinin olmaması problemin müxtəlif sahələrinin ayrı-ayrı tədqiqat əsərlərində izlənməsini və təhlilini də zəruri edir. İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri tarixinin müəyyən məsələlərinə F.Əliyev və U.Həsənov 1997-ci ildə çap etdirdikləri və təkrar 2007-ci ildə nəşr olunan “İrəvan xanlığı” adlı əsərdə[2] toxunmuşlar. Müəlliflər II İraklinin İrəvan xanlığına olan işğalçılıq niyyətlərini ön plana çəkir və Hüseynəli xan Qacarın Osmanlı imperiyasına arxalanaraq II İraklinin İrəvan xanlığından Gürcüstana köçürdüyü ailələrin geri qaytarılması tələbini irəli sürdüyünü göstərirlər.[3] Müəlliflərin mənbələrə istinad edərək verdikləri digər məlumata görə İrəvan xanlığının Rusiya tərəfindən işğal edildiyi dövrdə İrəvan şəhərində beş min nəfərdən artıq əhali yaşayırdı.[4] Müəlliflərin İrəvanın əhalisi haqqında verdikləri məlumatın üzərində dayanmağımızın səbəbi bundan ibarətdir ki, burada əhalinin Azərbaycan türklərindən ibarət olduğunu nəzərə alan Rusiya əhalinin Türkiyəyə meyl edəcəyindən həmişə ehtiyat etmişdir. Buna görə də İrəvan xanlığı Rusiya ilə Türkiyə arasında olan münasibətlərin ən həssas nöqtələrindən birinə çevrilmişdir.

Rusiyanın hakim dairələri ehtiyat edirdilər ki, Azərbaycan xanları arasındakı narazılıqdan Osmanlı Türkiyəsi istifadə edə bilər. Bununla əlaqədar II Yeka-

---

[1] Nəcəfli G.C. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı: 2002; Mustafayev H.Y. Osmanlı imperiyasının xarici siyasətində Azərbaycan xanlıqları // Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1989, №3; Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: 2002; Qarayev E.T. İrəvan xanlığı. Bakı: Avropa, 2010; Qarayev E.T. XVIII yüzilliyin 60-90-cı illərində İrəvan xanlığının Osmanlı imperiyası ilə siyasi münasibətləri // Dirçəliş XXI əsr, №166-167. 2012.

[2] Əliyev F. və Həsənov U. İrəvan xanlığı. Bakı: 1997; Əliyev F. və Həsənov U. İrəvan xanlığı. Bakı: 2007.

[3] Əliyev F. və Həsənov U. İrəvan xanlığı. 1997, s. 83.

[4] Yenə orada, s. 67.

terina hökuməti Qafqazdakı rus komandanlığına tapşırmışdı ki, "... o yerlərə yaxın olduğu üçün Azərbaycan xanlarına, o cümlədən Hüseyn xan İrəvanlıya, Nəcəfqulu xan Təbrizliyə... və s. aralarındakı əmin-amanlığı bərpa etməyi, sakit yaşamağı təlqin etsinlər. Ümid edirəm ki, Azərbaycan xanları bu həqiqəti başa düşdükdə insanlıq və xeyirləri naminə qan tökən ara müharibələrini dayandıracaqlar".[1] Bu kimi tarixi məlumatlara əsasən Rusiya Federasiyasının dövlət arxivlərinin sənədlərinə istinad edərək, onları tədqiq edərək elmi dövriyyəyə daxil edən müəlliflərdən biri kimi N.Mustafayeva da haqlı olaraq İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələrinin istiqamətlərini düzgün işıqlandıra bilmişdir.

"İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən" adlı əsərin müəllifi M.Süleymanov da İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətlərinə öz tədqiqatında müəyyən yer vermişdir. Müəllif İrəvan xanı Məhəmməd xanın mərkəzi hakimiyyətə qarşı qiyam qaldıran ahalsıxlı Şərif paşaya yardım etməsi səbəbindən Qars hakimi Mehmet paşa ilə onun arasında münaqişələrin yaranmasına gətirib çıxaran amilləri göstərir.[2]

Bir sıra əsərlərin təhlilindən məlum olur ki, Georgiyevsk müqaviləsi bağlandıqdan sonra Azərbaycan torpaqlarında, o cümlədən İrəvan xanlığı ərazisində erməni dövləti yaratmaq məqsədilə Rusiyada gizli planlaşdırılan siyasətin həyata keçirilməsi üçün qəti tədbirlər görülməyə başlanılır. Bu təcavüzkar niyyətin qarşısını almaq üçün İrəvan xanlığının xarici siyasətində aparıcı rolu Osmanlı dövləti ilə münasibətlər təşkil edirdi.

Tədqiqat işi ilə bağlı müəyyən məsələlərə toxunan G.Nəcəfli Osmanlı sənədlərindən bəhrələnərək qeyd edir ki, XVIII əsrin 80-90-cı illərində Azərbaycan xanlıqları arasında mövcud olan daxili çəkişmələr onların xarici siyasətində öz müstəqilliklərini qoruyub saxlamaq üçün ciddi maneəyə çevrilmişdir. Müəllif Azərbaycan xanlıqları arasında baş verən daxili çəkişmələrdən Osmanlı dövlətinin narahat olduğunu və İrəvan xanlığı ilə olan münasibətlərini xüsusi qeyd edir. Müəllif daha sonra göstərir ki, II İrakli Azərbaycan xanlıqları arasında birliyin olmamasından məharətlə istifadə etməyə çalışırdı.[3]

Müəllif "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri" adlanan ikinci əsərində 1763-cü ildə Tiflisə gələn avantürist erməni ideoloqu, birləşmiş "erməni-gürcü dövləti" layihəsinin müəllifi hesab olunan İ.Eminin niyyətinin – İrəvan bölgəsində yaşayan azsaylı ermənilərlə gürcülərin birliyinə çalışması niyyətinin nədən ibarət olduğunu açıqlayır.[4]

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərinə həsr olunmuş tədqiqatlardan biri də T.Mustafazadənin "XVIII yüzillik – XIX yüzilliyin

---

[1] Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı: 1995, s. 55.

[2] Süleymanov M.S. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı: 1997, s. 27.

[3] Nəcəfli G.C. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı: 2002, 69.

[4] Yenə onun. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: 2007, 112.

əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri" adlı əsəridir.[1] Müəllif həmin əsərdə göstərir ki, sultan hakimiyyəti çar Rusiyasının Cənubi Qafqazı ələ keçirmək üçün həmişə Kartli-Kaxeti çarlığından istifadə etdiyini diqqətdə saxlayırdı. Ümumiyyətlə, müəllif tədqiqat zamanı Rusiya-Gürcüstan bloku və Osmanlı dövləti arasında İrəvan xanlığının bir amil kimi diqqətdə olduğunu daim vurğulayır. O, göstərir ki, rus çarının gürcü çarı ilə əlbir olduğu tam aydındır.[2]

Mənbələrin verdiyi məlumata görə Qacarın yürüşü zamanı İrəvan xanı əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görür və çox güman ki, ödəyəcəyi vergiyə görə ona tabe olmurdu. T.Mustafazadə bu qənaətə gəlir ki, hətta digər Azərbaycan xanları Ağa Məhəmməd şah Qacara öz itaətlərini bildirsələr də, İrəvan xanı Məhəmməd xan müqavimət göstərməyə hazır olmuşdur.[3]

Əsasən rus müəlliflərinin əsərlərinə və rus mənbələrinə istinad edən S.Hacıyeva II Yekaterinanın Azərbaycanla bağlı yeritdiyi siyasətə həsr etdiyi əsərində[4] Osmanlı sultanının Azərbaycan xanlarını Rusiya təhlükəsinə qarşı mübarizəyə sövq etmək üçün onlara müxtəlif hədiyyələr göndərməsini qeyd edir və bunun heç bir nəticə vermədiyini göstərir. Müəllif daha sonra qeyd edir ki, Osmanlı dövləti göndərdiyi fərmanla İrəvan xanının nəzərinə çatdırılır ki, II İraklinin hərəkətlərinə göz qoysun. Eyni zamanda Ahalsıx, Qars və Bəyazid paşalarına İrəvan xanlığını müdafiə etmək üçün yürüşə hazır olmalarını tapşırır.[5]

Lakin müəllif Osmanlı mənbələrinin təsdiq etdiyi kimi, Azərbaycan xanlarının, o cümlədən İrəvan xanlığının Osmanlı sultanının müraciətini qəbul edib-etmədiklərinə öz münasibətini bildirmir. Halbuki, həm Rusiya, həm də Osmanlı mənbələrinin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, İrəvan xanlığı da digər Azərbaycan xanlıqları kimi Rusiya və Osmanlı dövləti ilə münasibətlərində manevr etməyə cəhd göstərərək, bu yolla öz müstəqilliyini qoruyub saxlamağa çalışmışdır.

V.Umudlunun 2004-cü ildə işıq üzü görmüş "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)" əsəri[6] XIX əsrin ilk onilliklərində Şimali Azərbaycanda müstəmləkəçilik əleyhinə mübarizənin tədqiqinə həsr olunmuşdur. Müəllif əsərdə əsasən İrəvan xanlığının Rusiya işğalçılarına qarşı mübarizəsini izləsə də, tədqiq etdiyimiz məsələyə də qismən münasibət bildirən məqamları vurğulamışdı. Müəllif İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalına da geniş yer vermişdir.

XVIII əsrin 60-90-cı illərində İrəvan xanlığının Osmanlı dövləti ilə münasi-

---

[1] Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: 2002.

[2] Yenə orada, s. 159-160.

[3] Yenə orada, s. 235.

[4] Гаджиева С.М. Азербайджан во внешней политике Екатерины II. Баку: 2004.

[5] Там же, с. 113.

[6] Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: 2004.

bətlərini araşdıran müəlliflərdən biri də E.Qarayevdir. Müəllif "XVIII əsrin 60-90-cı illərində İrəvan xanlığının Osmanlı imperiyası ilə siyasi münasibətləri" adlı məqaləsində[1] Rusiya-Türkiyə müharibələrinin baş verdiyi dövrlərdə – 1768-1774, 1787-1791-ci illərdə İrəvan xanlığının hərbi əməliyyatların baş verdiyi əraziyə yaxın olduğundan Rusiya və Osmanlı dövlətinin burada möhkəmlənmək istəyini, onların İrəvan xanlığına olan maraqlarının səbəbini izah edir. Müəllif göstərir ki, həmin dövrdə siyasi vəziyyətlə əlaqədar olaraq Kartli-Kaxeti çarlığından nominal asılılıqda olan və ona vergi verən Hüseynəli xan bəzi Azərbaycan xanları ilə birlikdə Osmanlı sultanından hərbi kömək almaq qərarına gəlir və gürcülərə vergi verməkdən imtina edir.[2]

Georgiyevsk müqaviləsinin imzalanmasından sonra yaranmış beynəlxalq şəraitdə İrəvan xanı Hüseynəli xan digər Azərbaycan xanları ilə əlaqələrini möhkəmləndirirdi. O, bu zaman müəyyən diplomatik danışıqlar apardıqdan sonra xanların Osmanlı dövlətinə meyllərinin güclənməsinə nail ola bilir. Hüseynəli xan ilə xoylu Əhməd xan birgə məktub yazaraq Qars hakimi Əli paşa vasitəsilə Osmanlı sarayına müvafiq məlumat da verirlər.[3]

“İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi“ adlı monumental əsərdə[4] də xanlığın Osmanlı dövləti ilə münasibətlərinə kifayət qədər yer verilmişdir.

Monoqrafiyada İrəvan xanlığının Azərbaycanın dövlətçilik tarixinin ayrılmaz tərkib hissəsi kimi təqdim edilməsi təqdirəlayiq işdir. Həmin əsərdə xanlığın əhalisi, sosial-iqtisadi vəziyyəti, sərhədləri, inzibati bölgüsü və idarəçilik sistemi, mədəniyyəti haqqında zəngin məlumat verilmişdir. Bununla bərabər həmin əsərdə İrəvan xanlığının xarici siyasətinin istiqamətləri, o cümlədən xanlığın Osmanlı dövləti ilə əlaqələri də kifayət qədər təhlil edilmişdir. Monoqrafiyanın 10-cu bölməsində təqdim edilən İrəvan xanlığı ərazisindəki azərbaycanlılara məxsus yer adlarının kütləvi surətdə dəyişdirilməsi və tarixi adlara qarşı soyqırımına dair əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor Yaqub Mahmudovun dəyərli fikirlərinin[5] və tarixi adlara qarşı soyqırımını özündə əks etdirən cədvəllərin verilməsi əsərin elmi dəyərini daha da artırır.[6] Erməni yalanlarını sübut edən həmin cədvəllər təkcə Azərbaycan tarix elminə deyil, həm də dünya tarix elminə ən böyük dəlil kimi təqdim edilə bilər.

---

[1] Qarayev E.T. XVIII yüzilliyin 60-90-cı illərində İrəvan xanlığının Osmanlı imperiyası ilə siyasi münasibətləri // Dirçəliş XXI əsr, №166-167. 2012

[2] Yenə orada, s. 408.

[3] Nəcəfli G.C. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı), s. 89.

[4] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: 2009.

[5] Yenə orada, s. 460-463, 540-546.

[6] Yenə orada, s. 459-538.

“İrəvan xanlığının tarixşünaslıgı” adlı əsərin[1] müəllifi Z.Hacıyeva xanlığın tarixinə həsr olunmuş əsərləri təhlil edərkən İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələrinə, kənar mövzu olduğuna görə toxunmur və digər müəlliflərin əsərlərinə, eyni zamanda problem olaraq məsələyə münasibət bildirmir. Azərbaycan, rus, erməni, İran və digər ölkə tarixşünaslığında İrəvan xanlığının tarixi ilə bağlı məsələləri təhlil edərkən Z.Hacıyeva “İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” adlı əsərə münasibət bildirməsini istisna etməklə, təhlil etdiyi heç bir əsərdə araşdırdığımız məsələ ilə bağlı müəlliflərin təqdim etdikləri məsələlərə diqqəti çəkmir.

Təhlil etdiyimiz əsərlər haqqında ümumilikdə onu da qeyd etməliyik ki, həmin müəlliflər XVIII əsrin II yarısında İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətlərini bu və ya digər formada tədqiq etmişlər. Lakin XIX əsrin əvvəllərində, xüsusilə də I və II Rusiya-İran müharibələri dövründə İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələri tarixinə aydınlıq gətirilməmiş, demək olar ki, müəlliflər məsələyə ötəri toxunmuşlar. Beləliklə, mövzu tam tədqiq olunmamış qalır.

**Tədqiqatın mənbə bazası.** Mənbələrin araşdırılması və həmin mənbələrə obyektiv münasibət tarix elminin ən ümdə vəzifələrindəndir. Uzun müddət Azərbaycan alimləri üçün Osmanlı mənbələri əlçatmaz olmuşdur. Ona görə də araşdırılan problemin konkret həllində bir boşluq görünməkdə idi. Bu problemlə əlaqədar olaraq tarixşünaslığımızda olan həmin boşluğu aradan qaldırmaq üçün Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan sənədlər çox mühüm əhəmiyyət kəsb edir.

Qeyd edildiyi kimi, sovet dövrünün tədqiqatlarında bu sənədlərin elmi dövriyyəyə cəlb edilməməsinin nəticəsində sovet tarixşünaslığında Azərbaycan xanlıqlarının xarici siyasət xəttinin araşdırılması zamanı xanlıqların Rusiyaya “könüllü birləşmə” konsepsiyası kök salmışdır. Həmin konsepsiyanın formalaşması isə qeyd etdiyimiz kimi, həm də İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələrinin araşdırılması kimi vacib bir tədqiqat işinin elmi dövriyyəyə cəlb edilməsini dövrümüzədək ləngitmişdi.

Azərbaycan tarixçilərinin də istifadə etdiyi Türkiyə Cümhuriyyəti tərəfindən nəşr edilən “Osmanlı Dövləti ilə Azərbaycan türk xanlıqları arasındakı münasibətlərə dair arxiv bəlgələri” adlı ikicildlik[2] nəşrlərin tədqiqat işi ilə əlaqədar əhəmiyyəti böyükdür. Lakin zənginliyi ilə fərqlənən TC BOA-nın sənədlərini araşdırdıqca yeni-yeni materialların üzə çıxması Azərbaycan tarixi ilə bağlı bir çox problemlərin araşdırılması zərurətini ortaya çıxarır.

Azərbaycan tarixi ilə bağlı olan həmin sənədlərin toplanılması və nəşr olunması istiqamətində son dövrlərdə AMEA A.Bakıxanov adına Tarix İnstitutunun apardığı işlər təqdirəlayiqdir. Bu sənədlər İnstitut tərəfindən ayrıca külliyyat ha-

---

[1] Hacıyeva Z.Ə. İrəvan xanlığının tarixşünaslığı. Bakı: 2012.

[2] Osmanlı Devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri. Cilt I. Ankara: 1992; Cilt II. Ankara: 1993.

lında nəşr olunmuşdur. Tədqiqat prosesində onlardan da istifadə olunmuşdur.[1] Topluya əldə edilən yeni sənədlər daxil edilmişdir ki, bu da Azərbaycan tarixinin, o cümlədən İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətləri tarixinin araşdırılmasına aydınlıq gətirə bilər. Belə ki, sənədlər toplusuna daxil edilmişdir. 1823-cü il martın 3-ə aid bir sənəd tədqiqat işimizlə bağlı olaraq mühüm əhəmiyyət kəsb edir. Sənəddə İrəvan xanı Hüseynqulu xanın Qars mühafizi Osman paşaya göndərdiyi məktub verilmişdir. Məktubda 1820-1823-cü illərdə Osmanlı dövləti ilə Qacarlar dövləti arasında baş verən müharibə zamanı əhalinin çox əziyyət çəkməsindən narahat olan İrəvan xanının sülh bağlanmasının vacibliyini bildirməsi öz əksini tapmışdır[2] ki, həmin məlumata əsasən Osmanlı dövlətinin Qacarlarla apardığı müharibə zamanı İrəvan xanlığının mühüm bir siyasi qüvvə və ya bir vasitəçi kimi rol oynadığını söyləyə bilərik.

Osmanlı arxiv sənədlərinin birində I Rusiya-İran müharibəsi zamanı İrəvan xanlığının mövqeyi, onun çar Rusiyası və Qacarlar İranı ilə münasibətlərinin Osmanlı sarayı tərəfindən daim diqqət mərkəzində saxlanıldığı bildirilirdi.[3] Digər Osmanlı arxiv sənədində isə İrəvan xanı Məhəmməd xan ilə Abbas Mirzənin İrəvan xanlığına hücum edən Rusiya hərbi qüvvələrinə qarşı apardığı mübarizə haqqında məlumat verilir. Osmanlı sarayına göndərilən həmin rəsmi məlumatda çar qoşunlarının məğlub olaraq geri çəkilməsi öz əksini tapmışdır.[4] Lakin Osmanlı dövlətinə göndərilən məlumatlar rəsmi xarakter daşıyırdı.

Osmanlı mənbələrinin müqayisəli təhlili İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələri ilə bağlı belə bir nəticəyə gəlməyə imkan verir ki, Osmanlı dövləti Azərbaycanın digər xanlıqları kimi İrəvan xanlığının da çar Rusiyası tərəfindən işğal edilməsi ilə barışmaq istəmirdi. Lakin hərbi qüdrəti zəiflədiyindən Rusiya imperiyasının işğalçılıq siyasətinə real şəkildə müqavimət göstərə bilmirdi. Ümumiyyətlə, beynəlxalq münasibətlərin gedişindən asılı olaraq İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələri həmişə eyni səviyyədə olmamış, özünəməxsus xüsusiyyətlərə malik olmuşdur.

Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Osmanlı Arxivinin "Hattı-Humayun" fondundan kifayət qədər sənədlərin əldə edilməsi araşdırdığımız məsələ ilə bağlı həqiqətlərin kompleks şəkildə üzə çıxarılmasına kömək edə bilər. Həmin mənbələrin təhlili nəticəsində əldə edilən məlumata görə XVIII əsrin 70-ci illərində Ənzəlidəki rus konsulu Boqolyubov yazırdı ki, Şirazdakı bir katolik dostundan Ərzurum sərəsgərinin Təbriz ilə bərabər İrəvan xanını da artıq öz tərəfinə çəkə bildiyi barədə dəqiq xəbər almışdı.[5]

---

[1] Azərbaycan tarixi arxiv sənədlərində. XVIII-XX əsrin əvvəllərində. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin Sənədləri. I cild. Bakı: 2011; II cild. Bakı: 2012.

[2] BOA, Hatti-Hümayun, nr. 783/36612B.

[3] Azərbaycan tarixi arxiv sənədlərində. XVIII-XX əsrin əvvəllərində. I cild, s.29.

[4] BOA, Hatti-Hümayun, nr. 16/714.

[5] Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, s. 161.

Mövzunun mənbə bazasına XIX əsrin əvvəlində çar Rusiyası Şimali Azərbaycanı işğal edən zaman baş vermiş həmin hadisələri bilavasitə öz əsərlərində əks etdirən rus hərb tarixçilərindən N.F.Dubrovinin,[1] V.A.Pottonun[2] və digər müəlliflərin əsərlərini də aid etmək olar. Həmin əsərlərdə müəlliflər çar qoşunlarının işğalçı yürüşlərini Rusiyanın zəfər yürüşləri kimi tərənnüm etmişlər. Bununla belə arxiv sənədləri ilə zəngin olan bu əsərlərdə İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğal tarixinə dair kifayət qədər məlumat verilmişdir.

İrəvan xanlığının işğalından sonra tədqiqatçı İ.Şopen Paskeviçin göstərişi ilə xeyli material əldə edərək, həmin xanlığın işğaldan əvvəlki və sonrakı vəziyyətinə dair geniş statistik məlumat vermişdir.[3] Rusiya işğalı ərəfəsində İrəvan xanlığının bütün xristian əhalisinin ümumi sayı 20%-dən çox olmamışdır. Bu faktı İ.Şopenin tədqiqatı tam təsdiq edir. İ.Şopenin məlumatına görə İrəvan xanlığında işğal ərəfəsində 49 875 nəfər müsəlman (Azərbaycan türkü – Ş.M.), 324 nəfər kürd, 20 073 nəfər isə erməni yaşayırdı.[4]

İ.Şopen çar Rusiyasının işğalçılıq siyasətindən sonra yaradılan "erməni vilayəti"ni İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölür. Həmin bölgü ilə İrəvan xanlığının etnik təsvirini verməyi heç də qarşısına məqsəd kimi qoymayan müəllif İrəvan əyalətinin etnik tərkibini araşdırarkən həmin ərazidə ermənilərin sayca çoxluq təşkil etdiyi qənaətinə gəlir. Müəllif İrəvan əyalətinin – İrəvan xanlığının ərazisinə köçürülən ermənilərin sayını göstərməsinə baxmayaraq, İrəvan xanlığında onların sayını süni şəkildə artırdığının fərqinə varmır. İrəvan xanlığının əhalisini İrəvan əyalətinin əhalisi kimi təqdim edən İ.Şopen əhalinin 23 mindən çoxunun erməni olduğunu və İrandan köçürüldüyünü, 21 mindən çox erməninin isə Türkiyədən köçürüldüyünü və ümumilikdə 115.155 nəfər erməninin köçürüldüyünü yazır.[5]

A.Tsaqarelinin redaktəsi ilə nəşr olunmuş iki hissədən ibarət sənədlər toplusunda[6] da İrəvan xanlığının siyasi vəziyyəti, onun Kartli-Kaxeti çarlığı, Rusiya və Qacarlar səltənəti ilə olan münasibətləri, həmçinin Osmanlı dövləti ilə də əlaqələrinə dair məlumatlar verilmişdir.

---

[1] Дубровин Н.Ф. Закавказье от 1803 до 1806 гг. Санкт-Петербург: 1866; его же. История войны и владычества русских на Кавказе. Том I. Санкт-Петербург: 1871; Том II. 1886; Том III. 1886; Т.IV. 1886; Т.V. 1887; Т.VI. 1888.

[2] Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, том I. Санкт-Петербург: 1887; т.II. 1887; т.III. 1888.

[3] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху присоединения ее к Российской империи. Санкт-Петербург: 1852.

[4] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху присоединения ее к Российской империи, с. 635-642; İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 77.

[5] Там же, с. 637-638.

[6] Грамоты и другие исторические документы XVIII столетия, относящейся к Грузии, в 2-х томах, т. 1. Санкт-Петербург: 1891.

İrəvan xanlığına daxil olan Şörəyil və Pəmbək mahalları xanlığın ərazi məsələlərində mübahisələr doğururdu. Lakin Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında (QAKA) həmin ərazilərin İrəvan xanlığına məxsus olması faktı təsdiqlənir. Dissertasiyada həm ərazi məsələləri baxımından, həm də mövzu ilə bağlı digər problemlərin araşdırılmasında QAKA-larda olan sənədlərdən də geniş istifadə olunmuşdur.[1]

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan dissertasiyanın tarixşünaslıq bazasına nisbətən geniş mənbə bazası vardır və bu, əsasən BOA Hattı-Hümayun fonduna məxsus sənədlərdən ibarətdir. Tədqiq olunan mövzuda aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

- İrəvan xanlığının ərazisi, sərhədləri və əhalisi haqqında ayrı-ayrı tədqiqat əsərlərində verilən məlumatları ümumiləşdirmək;
- xanlığın Osmanlı dövləti ilə əlaqələrinin ayrı-ayrı tədqiqat əsərlərində təqdim olunan məsələlərini konkretləşdirərək, elmi dövriyyəyə daxil etmək;
- İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələrinə aid yeni mənbələri elmi dövriyyəyə cəlb etmək;
- XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Osmanlı dövlətinin Rusiya imperiyası ilə münasibətlərində İrəvan xanlığının mövqeyini müəyyənləşdirmək;
- Kartli-Kaxeti çarlığının İrəvan xanlığına qarşı yeritdiyi ikili siyasəti araşdırmaq;
- Rusiya-Gürcüstan blokuna qarşı mübarizədə İrəvan xanlığı ilə Osmanlı dövlətinin birgə ittifaqının əsas xüsusiyyətlərini təhlil etmək;
- Rusiya-Qacar, Rusiya-Osmanlı münasibətləri kontekstində əhali ilə bağlı olaraq İrəvan xanlığının ərazisində yaranmış demoqrafik problemi araşdıraraq ümumiləşdirmək.

**Dissertasiya işinin metodoloji əsası.** Yuxarıda göstərilən vəzifələrin yerinə yetirilməsi üçün dissertasiya işində bir sıra elmi-nəzəri metodlardan istifadə edilmişdir. Tədqiqat zamanı konseptuallıq, obyektivlik, tarixilik prinsiplərinə əməl edilmiş, mənbələrə, tədqiqat əsərlərinə tənqidi yanaşmaqla müqayisəli metodlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- kifayət qədər arxiv sənədlərinin əldə edilməsi sayəsində araşdırılan məsələ ilə bağlı həqiqətlər kompleks şəkildə tədqiq olunur;
- ilk dəfədir ki, I Rusiya-İran müharibəsi dövründə İrəvan xanlığının Rusiya-Gürcüstan blokuna qarşı apardığı mübarizə tədqiqat işinin tərkib hissəsi kimi təhlil edilir;
- I və II Rusiya-İran müharibələri zamanı İrəvan xanlığının Osmanlı dövləti ilə sərhəd məsələlərində ortaya çıxan problemlər təhlil edilir;
- Ağa Məhəmməd şah Qacarın yürüşü zamanı İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələrinin əsas cəhətləri araşdırılır;

[1] Акты, Собранные Кавказской Археографической Комиссией (далее – АКАК), тт. I-VI. Тифлис: 1866-1878.

- Osmanlı dövlətinin sərhədlərinin birgə qorunmasının İrəvan xanlığına həvalə edilməsi faktı ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilir;
- 1821-1823-cü illərdə Osmanlı dövləti ilə Qacarlar İranı arasında baş verən müharibə zamanı ilk dəfə olaraq İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətləri Osmanlı mənbələri əsasında elmi dövriyyəyə daxil edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada təqdim olunan mənbəşünaslıq və tarixşünaslıq materialından, aparılan ümumiləşdirmə və nəticələrdən Azərbaycan tarixi üzrə əsərlərin yazılması işində istifadə oluna bilər. Dissertasiya işi Azərbaycanın XVIII-XIX əsrlər diplomatiya və xarici siyasət tarixini öyrənənlər üçün əhəmiyyətli ola bilər. Dissertasiyada verilən materiallar Azərbaycan tarixi üzrə mühazirə və ixtisas kurslarının, magistratura təhsil pilləsi üçün nəzərdə tutulan proqramların və metodik vəsaitlərin tərtibi zamanı da faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiya həmin şöbədə 2 dəfə (ikinci dəfə 28 mart 2016-cı ildə, protokol №2) müzakirə olunmuşdur. Tədqiqat işinin məzmunu müəllifin ölkəmizdə, eləcə də xarici ölkələrdə nəşr olunan nüfuzlu jurnallarda dərc edilmiş 6 elmi məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 10 paraqrafı əhatə edən 3 fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **«İrəvan xanlığının Azərbaycan dövlətçiliyi tarixində yeri və rolu»** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "Xanlığın meydana gəlməsi, ərazisi, əhalisi və sərhədləri" adlanır. Bu yarımfəsildə göstərilir ki, XVIII əsrin əvvəllərində mərkəzi hakimiyyətin zəiflədiyi Səfəvilər dövlətində, habelə Azərbaycanda ayrı-ayrı bölgələri idarə edən hakimlər, o cümlədən Çuxursəd bəylərbəyiləri mərkəzi hakimiyyətdən ayrılaraq müstəqil hakimlərə çevrilmişdilər. Çuxursəd bəylərbəyiliyinin ərazisində yaranmış İrəvan xanlığı da digər Azərbaycan xanlıqları kimi tarixi inkişafın obyektiv nəticəsi olaraq məhz bu dövrdə yaranmışdı.

Nadir şahın 1747-ci ildə qətlə yetirilməsindən sonra İrəvan bəylərbəyi Pir Mahmud xan hakimiyyəti əldə saxlamağa çalışsa da, İrəvanda İran ağalığına qarşı üsyana başçılıq edən yerli feodal Mir Mehdi xan 1747-ci ildə özünü xan elan edərək müstəqil İrəvan xanlığının əsasını qoymuşdu.[1]

Xanlıq ərazisindəki bütün inzibati, təsərrüfat, məhkəmə və hərbi işlər xanın əlində cəmləşmişdi. Burada sərdarın hakimiyyəti mütləq idi.[2] Xan ölkənin tam

---

[1] Azərbaycan tarixi. 7 clddə. 3-cü cild. Bakı: 1999, s. 413.

[2] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях (составил Лекгобытов), ч.I.

sahibi idi. O, xanlıq ərazisində görüləcək işlər üçün heç kimə hesabat vermir və heç kimdən icazə almırdı. Xan istənilən adama istənilən cəzanı verə və ya bağışlaya bilirdi. Xanlıq ərazisində Üçmüəzzin kilsəsində yerləşən erməni katolikosu da İrəvan xanının razılığı ilə seçilirdi.[1]

Osmanlı mənbələrində 1749-cu ildə Nadir şahın qardaşı oğlu İbrahim Mirzə tərəfindən Məhəmməd Cəfər xan Əfşarın İrəvan bəylərbəyi təyin edilməsi haqqında məlumat verilir. Məhəmməd Cəfər xan həm Osmanlı, həm də İran tərəfdən gəlib-gedən tacirlərin haqlarını qorumalı və onlara sığınacaq verməli idi.[2] Bəzi mənbələrdə İrəvan xanlığının Qacarlar İranından vassal asılılığında olan hakimlər tərəfindən idarə olunduğu göstərilir.[3]

XVI əsrdən XVIII əsrin I rübü də daxil olmaqla, İrəvan əyaləti sabit sərhədlərə malik olmuşdur. Azərbaycan Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Çuxursəd bəylərbəyiliyi Arazın hər iki sahilindəki düzənlikləri əhatə edirdisə,[4] İrəvan əyalətinin daha çox hissəsi Arazın sol sahilində yerləşirdi.[5]

1590-cı il tarixli müfəssəl dəftərə əsasən Çuxursəd bəylərbəyiliyinin ərazisi İrəvan və Naxçıvan livalarına bölünmüşdü. İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Körpü, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərabxana.[6] 1728-ci il tarixli müfəssəl dəftərə görə İrəvan əyalətinə İrəvan şəhərindən başqa Qırxbulaq, Körpü, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göycə, Dərələyəz, Mərəzə, Sürməli, İqdır, Aralık, Şərur nahiyələri daxil idi.[7]

İrəvan şəhərinin özündə 1728-ci ildə 4 məhəllə – Köhnə şəhər, Dəmirbulaq, Dərəkəndi və Təpəbaşı adlı məhəllələr olmuşdur.[8]

Şopenin 1829-1832-ci illərdə İrəvan xanlığının təsviri tərtib edilərkən yazdığı rəqəmlərə əsasən İrəvan şəhərində 5.338 nəfər müsəlman, 6.125 nəfər isə erməni qeydə alınmışdı. Təbii ki, İrəvan şəhərində ermənilərin sayının çox olması onların Ədirnə müqaviləsindən sonra buraya köçürülməsi ilə bağlı olmuşdur. Əgər hər ailədə orta hesabla 5 nəfərin olduğunu götürsək, onda İrəvan şəhərində 8680 nəfərin[9] olduğunu güman etmək olar ki, bu da Şopenin yuxarıda göstərdi-

---

Санкт-Петербург: 1836, с. 22.

[1] Süleymanov M.S. Gülüstan müqaviləsi. Bakı: 2014. I hissə, s. 88.

[2] BOA, Hatti-Hümayun, nr. 5/178.

[3] Гакстгаузен А. Закавказский край. Заметки о семейной и общественной жизни и отношениях народов, обитающих между Черным и Каспийским морями. Ч.1. Санкт-Петербург: 1857, с. 181.

[4] Piriyev V.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı: 2002, s. 78.

[5] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 42.

[6] Yenə orada, s. 41.

[7] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov, t.e.n. H.Məmmədov (Qaramanlı). Bakı: 1996, s. 35-74.

[8] Yenə orada, s. 19-20.

[9] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее при-

yimiz rəqəmləri ilə ziddiyyət təşkil edir.

İrəvan xanlığında 521 kəndin[1] olduğunu yazan İ.Şopen azərbaycanlıların yaşadığı 153 kəndi qeydə almamışdır.[2]

İrəvan xanlığının ümumi ərazisi 13.114 kv.verst,[3] Pəmbək və Şörəyil istisna olmaqla, əhalisi 17 min ailədən ibarət olmuşdur. Şopenin yuxarıda göstərdiyimiz məlumatına əsasən isə İran və Türkiyədən köçürülən erməni əhalisinin sayı təxminən 115 155[4] nəfərdən ibarət olmuşdur.

Ermənilərin İrəvan xanlığı ərazisinə köçürülərək burada saylarının süni şəkildə artırılmasının tarixi bir qədər əvvəllərə aiddir. Belə ki, Azərbaycanın bu bölgəsinə ermənilərin varid olması hələ 1441-ci ilə aid edilir. Həmin ildə erməni katolikosluğu ermənilərin Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə – Üçkilsəyə köçürülməsini həyata keçirmişdir.[5] Erməni katolikosluğu XVI-XVII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri dövründə də Azərbaycan türklərinin öz doğma torpaqlarını tərk etməsindən məharətlə istifadə edərək, burada ermənilərin sayını artırmaq üçün əllərindən gələni edirdi.[6]

1647-ci ildə Azərbaycanda olmuş Övliya Çələbi "Səyahətnamə"sində İrəvanda 2060 ev, 1673-cü ildə İrəvan əyalətinin ərazisindən keçən J.Şarden isə bu illərdə İrəvan qalasında təxminən səkkiz yüz ev – təqribən 4000 nəfərin olduğunu və sakinlərinin hamısının "təmizqanlı səfəvilər olduğunu yazırdılar".[7]

1813-cü ildə İrəvanda olmuş ingilis diplomatı Ceyms Moryer İrəvan xanlığının əhalisinin 100 min nəfər olduğunu və bunların 25 min nəfərinin yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olduğunu qeyd edir.[8] Məhəmmədhəsən Vəlili xanlıqda 115000 nəfər əhalinin yaşadığını yazırdı ki, bu da Şopenin verdiyi statistik məlumata, yəni Türkiyə və İrandan köçürülən ermənilərin sayına yaxındır.[9]

Şopenin digər məlumatına görə "İrəvan xanlığında yaşayış olan 521 kənd-

---

соединения к Российской империи, с. 468.

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с. 509.

[2] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 77.

[3] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях, с. 22.

[4] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с. 636-638.

[5] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 71.

[6] Yenə orada, s. 74.

[7] İrəvan əyalətinin icmal dəftəri, s. 14.

[8] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 75.

[9] Vəlili M.H. Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı: 1993, s. 23.

dən[1] 310-u[2] dağıdılmışdı”. Bu kəndlər dağıdılarkən azərbaycanlılardan ibarət olan əhali çarizmin etnik təmizləmə siyasəti nəticəsində kəndləri tərk etmişdi.

İrəvan xanlığının sərhəd kəndlərində əhalinin əsas hissəsini müsəlmanlar təşkil edirdi.[3] Dubrovin göstərir ki, “erməni vilayəti”ndə ermənilərin sayı 1827-ci il və 1829-cu il müharibələrindən sonra İran və Türkiyədən köçürülənlərin hesabına artmışdır.[4]

Bu fəslin 2-ci yarımfəsli “İrəvan xanlığının XVIII əsrin II yarısında Azərbaycan xanlıqları ilə əlaqələri” adlanır və burada göstərilir ki, XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan digər xanlıqlar kimi, İrəvan xanlığının da siyasi tarixi ardı-arası kəsilməyən feodal çəkişmələri, qanlı saray çevrilişləri və yadelli işğalçılara qarşı mübarizə ilə dolu idi.

XVIII əsrin II yarısında İrəvan xanlığının Azərbaycan xanlıqları ilə olan münasibətlərini iki mərhələyə bölmək olar: birincisi xanlığın yarandığı dövrdən 1783-cü ildə Rusiya ilə Kartli-Kaxeti çarlığı arasında imzalanmış Georgiyevsk müqaviləsinə qədər olan dövr, ikincisi isə Georgiyevsk müqaviləsinin imzalandığı vaxtdan Ağa Məhəmməd şah Qacarın 1795-ci və 1797-ci illərdə Cənubi Qafqaza olan yürüşünə qədərki dövr. Azərbaycan xanlıqlarını birləşdirmək istəyən urmiyalı Fətəli xan Əfşar, Ərdəbil istisna olmaqla, qısa zamanda Cənubi Azərbaycanın xeyli hissəsini birləşdirə bilmişdi. İrana və Şimali Azərbaycana da öz təsirini yaymağa çalışan Fətəli xan müttəfiqlik əlaqəsi yaratdığı Azad xanı 1751-ci ildə qoşunlarının bir hissəsi ilə İrəvana da göndərdi.[5]

Mir Mehdi xan cənubdan gələn təhlükənin qarşısını almaq üçün İrəvan qalasının müdafiəsini möhkəmləndirir. Lakin Azad xan asanlıqla İrəvan qalasına daxil olur, Mir Mehdi xanı Həsən xan ilə əvəz edir.[6]

H.Abdullayev qeyd edir ki, qubalı Fətəli xan 1780-1783-cü illərdə Rusiya ilə danışıqlar apararkən 25 min nəfərlik qoşun da yığır. Müəllif qeyd edir ki, Fətəli xanın tərəfində Şimal-Şərqi Azərbaycanın qüvvələri və bəzi Azərbaycan hakimlərinin birləşmiş dəstələri ilə yanaşı İrəvan xanlığı da olmuşdur.[7]

P.Q.Butkov yazır ki,[8] Əhməd xan Xoylu qızını Məhəmməd xana verdikdən sonra İrəvan xanlığının daxili işlərinə qarışır, Kartli-Kaxeti çarı II İrakliyə İrəvan

---

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с. 509.
[2] Там же, с. 510-518.
[3] Дубровин Н.Ф. Георгий XII последний царь Грузии и присоединение ее к России. Санкт-Петербург: 1867, с. 125.
[4] Его же. История войны и владычества русских на Кавказе. Том I. кн. 2, с. 405.
[5] Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı- Azərbaycan münasibətləri, s. 154.
[6] Əliyev F. və Həsənov U. İrəvan xanlığı. Bakı: 2007, s. 75-76.
[7] AKAK, т. I. Тифлис: 1866, с. 111.
[8] Бутков П.Г.Материалы для новой истории Кавказа с 1722 по 1802 г.,ч.II, с.176.

xanlığına təzyiq göstərməyə imkan vermirdi.[1]

Hüseynəli xan hakimiyyəti illərində II İrakli ilə münasibətlərin gərgin vaxtında Naxçıvan xanlığında baş verən hakimiyyət dəyişikliyindən istifadə edərək onun daxili işlərinə müdaxilə edir.

İrəvan xanlığının xarici siyasətində, xüsusilə də Məhəmməd xan Qacarın Cənubi Qafqaza məlum yürüşü zamanı Azərbaycan hakimləri ilə olan münasibətləri də xüsusi yer tutur.

Ağa Məhəmməd xanın yürüşü ərəfəsində Qarabağ, Gəncə və Şamaxı xanları digər hakimlərlə bir ittifaqa gələ bilmişlər. Bu zaman Ağa Məhəmməd xandan ona tabe olması tələbini alan İrəvan xanı da adları çəkilən xanlıqlarla ittifaq bağlayıb, Qacara qarşı müqavimət göstərmək qərarına gəlir.[2]

Beləliklə, çox mürəkkəb olan XVIII əsrin II yarısında İrəvan xanlığı qonşu xanlıqlar və dövlətlərlə münasibətlərində nəinki öz müstəqilliyi uğrunda mübarizə aparır, hətta Azərbaycanın digər xanlıqlarında və qonşu dövlətlərdə baş verən hadisələrə bu və ya digər formada təsir də göstərə bilirdi.

I fəslin "İrəvan xanlığının XVIII əsrin II yarısında xarici siyasəti. Osmanlı imperiyası ilə əlaqələri" adlanan 3-cü yarımfəslində göstərilir ki, Cənubi Qafqaz istər Nadir şahın, istərsə də xanlıqlar dövründə çar Rusiyası və Osmanlı imperiyasının maraq dairəsində olmuşdur. Hər iki dövlət fürsətdən məharətlə istifadə edərək, bölgədə baş verən hadisələrə biganə qalmır, əksinə bu və ya digər formada öz siyasətlərini yeridirdilər.

Osmanlı sarayı İrəvanda baş verən hadisələri daim diqqətdə saxlayırdı. XVIII əsrin II yarısına, xüsusilə də 70-ci illərə aid olan Osmanlı mənbələrində İrəvan xanlığının Osmanlı dövlətinə sədaqətli olmasını təsdiqləyən sənədlər vardır.[3] Həmin illərdə hətta bəzi hallarda Osmanlı dövlətinin müştərək sərhədlərinin mühafizəsi İrəvan xanına həvalə olunurdu.[4]

Osmanlı dövləti daha çox İrəvan xanlığı vasitəsilə Azərbaycan xanlıqlarının, xüsusilə də qubalı Fətəli xanın Rusiya ilə yaxınlaşmasını, Rusiyanın Dağıstandakı fəaliyyətini izləyirdi.[5]

Şərqi Gürcüstanı ələ keçirən Rusiya 1783-cü ildə İrəvanı da tutmağa çalışır. Bundan xəbər tutan Osmanlı dövləti İrəvanın mühafizəsi üçün Bəyazid və Muş mütəsərrifinə göstəriş verir.[6] Georgiyevsk müqaviləsinin imzalanmasından sonra İrəvan xanlığı da öz müstəqilliyini itirməmək üçün gah Rusiya, gah da Osmanlı dövləti ilə əlaqəyə girmək məcburiyyətində qalırdı.

Beləliklə, XVIII əsrin II yarısında, xüsusilə də Georgiyevsk müqaviləsindən sonra Azərbaycan xanlıqları, o cümlədən İrəvan xanlığının siyasi vəziyyəti xeyli

---

[1] Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı: 1995, c. 49.

[2] BOA, Hatti-Hümayun, nr. 162/6748.

[3] BOA, Hatti-Hümayun, nr. 5/149.

[4] BOA, Hatti-Hümayun, nr. 6/181.

[5] Cemal Gökce. Kavkasiya və Osmanlı imperatorluğunun Kavkasiya siyaseti. İstanbul: 1979, s. 107.

[6] BOA, Hatti-Hümayun, nr. 9/324 G.

gərginləşir. Müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən İrəvan xanlığı Osmanlı dövlətinə dəfələrlə müraciət edir. Yeri gəlmişkən, 1785-ci ildə qarabağlı İbrahimxəlil xan, qubalı Fətəli xan, xoylu Əhməd xan sultana məktub göndərərək Osmanlı imperiyasının himayəsi altında olmağı arzuladıqlarını bildirirdilər.[1] Sultan pərakəndə Azərbaycan xanlıqlarını "müsəlmançılıq" şüarı altında birləşdirməyə çağırırdı. II İrakli də bu pərakəndəlikdən məharətlə istifadə edirdi. Bu dövrdə Rusiyanın himayəsini qəbul edən Kartli-Kaxeti çarlığı isə Rusiyanın köməyi ilə bütün Cənubi Qafqazda hakim olmağa çalışırdı.[2]

**"Birinci Rusiya-İran müharibəsi dövründə İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri"** adlanan ikinci fəsil 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə çar Rusiyasının Cənubi Qafqazın işğalı planlarında İrəvan xanlığı ilə bağlı siyasəti nəzərdən keçirilir. XVIII əsrin sonu– XIX əsrin əvvəllərində Rusiya işğalçı müharibələri nəticəsində Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənməyə, burada xristianlığı yaymağa, həm də buraya köçürdükləri ermənilərdən bir alət kimi istifadə etməyə çalışırdı. Ermənilər həm də Qacarlar dövlətində və Osmanlı imperiyasında Rusiyanın casusları sayılırdılar.

XVIII əsrin sonlarında Rusiya hərbi və diplomatik yolla Azərbaycan xanlıqlarını tabe etməyə çalışsa da,[3] bu, müxtəlif səbəblərdən baş tutmamışdı.

1784-1785-ci illərdə Cənubi Qafqazda Osmanlı dövlətinin təbliğatı yenidən fəallaşır. Osmanlı dövləti üçün böyük strateji əhəmiyyəti olan İrəvanın ələ keçirilməsi uğrunda mübarizə yenidən alovlanır. Bu zaman İrəvan xanlığı II İraklidən asılı idi və vergi ödəyirdi. 1783-cü ildə Hüseynəli xanın ölümündən sonra Osmanlı dövlətinin İrəvan xanına göndərdiyi fərmanlarda dəfələrlə açıq-aşkar xandan türklərin tərəfinə keçməsi tələb olunurdu.[4]

II İrakli İrəvan xanlığını ələ keçirmək üçün P.Potyomkinin məsləhəti ilə 2 minlik qoşun göndərir. 1787-ci ildə göndərilən gürcü və ruslardan ibarət bu qoşun İrəvan və Naxçıvan üzərinə hücum edərək, burada kütləvi qırğın törədib əhalini qarət edir.[5]

Hələ XVIII əsrin 80-ci illərində Q.Potyomkin Rusiyanın himayəçiliyi altında İrəvan xanlığı ərazisində erməni dövlətinin yaradılması planını hazırlamışdı. Həmin dövlət Qafqazda Qacarlar dövləti və Türkiyəyə qarşı mübarizə aparmaq üçün bufer rolunu oynamalı idi.[6]

II fəslin 2-ci yarımfəslində Gürcü çarlığının İrəvan xanlığı ilə bağlı işğalçılıq siyasəti məsələləri araşdırılır. İstər XVIII əsrin II yarısında, istərsə də ondan

---

[1] Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, s. 189.

[2] Sadıqov H.H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829-cu illər). Bakı: 1991, s. 37.

[3] Гаджиева С.М. Азербайджан во внешней политике Екатерины II, s. 91

[4] Там же, с. 113.

[5] Nəcəfli G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri, s. 180.

[6] Смирнов А. Политика России на Кавказе в XVI-XIX веках. Москва: 1958, с. 126.

əvvəlki dövrlərdə gürcülər İrəvan xanlığını işğal etməyə çalışırdılar. 1751-ci ilin sentyabrında gürcü çarı gözlənilmədən İrəvan xanlığına hücum edərək, xanın qoşununu məğlub etmişdi.[1] Burada II İraklinin "Qızılqaya xəyanəti"ni xatırlamaq da yerinə düşər. II İraklinin İrəvan xanlığına fasiləsiz yürüşləri nəticəsində xanlığının əsası qoyulandan 1759-cu ilə qədər feodal ara müharibələrinin nəticəsi kimi zəngin ticarət şəhəri olan İrəvan ona 30 000 rubl vergi verirdi.[2] Lakin bu vəziyyət müvəqqəti xarakter daşıyırdı.[3] II İrakli sonralar da – 1762-1765, 1775-1779-cu illərdə İrəvan xanlığı üzərinə yürüş etmiş, amma onu özündən tam asılı vəziyyətə sala bilməmişdi.

XVIII əsrin 70-ci illərində Osmanlı dövləti Kərim xan Zəndə qarşı mübarizədə II İrakli ilə danışıqlar aparır. Osmanlı dövləti II İrakliyə hədiyyə, "sülh və dostluq" belə təklif edir və 1778-ci ildə sultan ilə Kartli-Kaxeti çarlığı arasında müqavilə imzalanır. Aparılan danışıqların nəticəsində II İrakli Kərim xana qarşı mübarizə aparmaq üçün iki türk paşasına Kartli-Kaxeti ərazisindən bir şərtlə keçməsinə razı olur ki, onun İrəvan xanlığını Qarabağ xanı İbrahimxəlil xan ilə birlikdə ələ keçirməsinə Osmanlı paşaları mane olmasınlar.[4]

Hüseynəli xan isə Kərim xan Zəndə arxalanaraq, II İrakliyə bac verməkdən imtina edir. II İrakli ordu toplayıb İrəvan xanlığı üzərinə hücum edir.[5]

1779-cu ildə Kərim xanın ölümü ilə İran-Gürcüstan məsələsi bir müddət qüvvədən düşür[6] və bölgədə xanlıqlararası çəkişmələr ara vermir. Bundan istifadə edən II İrakli yenidən İrəvan xanlığından bac tələb edir və rədd cavabı alır.

II İrakli İrəvan xanlığını təkbaşına ələ keçirə bilməyəcəyini görüb, Rusiyanın himayəsini qəbul etmək qərarına gəlir. O, 1782-ci ilin sonlarında imperatriça II Yekaterinaya məktub yazaraq Kartli-Kaxeti çarlığının Rusiyanın himayəçiliyinə qəbul edilməsini xahiş edir. II İrakli çar Rusiyasından onun İrəvan və Gəncə xanlıqlarının ərazisinə yiyələnməsinə kömək etməsini xahiş edir, əvəzində isə Rusiyanın Osmanlı dövləti və Qacarlarla aparacağı müharibələrdə ona kömək edəcəyinə söz verirdi.[7]

Georgiyevsk müqaviləsinin bağlanmasından sonra II İraklinin İrəvan xanlığına qarşı təcavüzü ilə bağlı 1783-cü ilin noyabrında Çıldır valisi Süleyman paşa

---

[1] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1802 г., ч. I, с. 237-238.

[2] Грамоты и другие исторические документы XVIII столетия, относящейся к Грузии, в 2-х томах, т. 1, с. 183.

[3] Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва: 1966, с. 129.

[4] Там же, с. 156.

[5] Жизнь Артемия Араратского. Ленинград: АН СССР, 1980, с. 22.

[6] История Грузии. Часть I. С древнейших времен до начала XIX века. Тбилиси: 1946, с. 427.

[7] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 257.

tərəfindən hazırlanmış bir sənəddə göstərilir ki, Hüseynəli xanın vəfatından sonra II İrakli Rusiya hərbçilərinin köməyi ilə İrəvan qalasını ələ keçirmək niyyətindədir.[1]

İrəvan xanını narahat edən səbəblərdən biri də 1801-ci ildən sonra Kartli-Kaxetin Rusiyaya birləşdirilməsi ilə əlaqədar Pəmbəkin də birbaşa tabe edilməsi olmuşdur. Əhalinin narazılığı bəzən onların İrəvan xanlığının ərazisinə keçməsi ilə nəticələnirdi.[2] General-mayor Lazarevin general-leytenant Knorrinqə 1801-ci il iyulun 13-də göndərdiyi raportundan məlum olur ki, İrəvan xanı Məhəmməd xan Naxçıvan xanı Kəlbalı xan ilə birlikdə Pəmbək ağalarına müraciət edərək İrəvan xanlığının ərazisinə keçməyi təklif etmişdilər.

Beləliklə, gürcü çarları hər vəchlə İrəvan xanlığını özlərinə tabe etməyə çalışırdılar. Lakin bu, onlara yalnız şəraitdən asılı olaraq müəyyən dövrlərdə qismən müyəssər olurdu.

II fəslin "Rusiya-Gürcüstan təcavüzünə qarşı İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri" adlanan 3-cü yarımfəslində istər 1783-cü il Georgiyevsk müqaviləsindən əvvəl, istərsə də sonrakı dövrdə İrəvan xanlığının xarici siyasətində Kartli-Kaxeti çarlığına qarşı mübarizədə xanlığın Osmanlı imperiyası ilə münasibətlərinin aparıcı rol oynadığı göstərilir.

Rusiyanın işğalçı planlarını yaxşı anlayan Osmanlı sultanı İrəvan xanına göndərdiyi məktubda yazırdı: "Bizə gəlib çatıbdır ki, Tiflis çarı Rusiya ilə birləşərək Azərbaycan xanlarının arasını vurmağa, onların arasında Rusiyaya meyl yaratmağa çalışır. Siz bizimlə birləşməyə səy edin. Bizim məqsədimiz odur ki, çar İrakli sizə zərər vura bilməsin.[3]

Rus diplomatiyası özünü elə aparırdı ki, guya Qafqaz məsələsi Rusiyanı az maraqlandırır. Lakin Kiçik-Qaynarca sülhündən dərhal sonra Rusiyanın Şərq məsələsi, xüsusilə Qafqaz məsələsinə hazırlıq mərhələsi başlayır.[4]

Əslində Azərbaycan xanlıqlarına münasibətdə Rusiya, İran və Osmanlı imperiyasının hər üçünün maraqları toqquşurdu.

II İrakli 1783-cü il Georgiyevsk müqaviləsindən sonra Rusiyanın himayəsinə keçməsi ilə hesab edirdi ki, bu hadisə onun İrəvan və Gəncə üzərində hakimiyyətinin bərqərar olmasına qarant ola bilməz. P.S.Potyomkinə yazdığı məktublarda dəfələrlə bunu vurğulayan II İrakli Azərbaycanın Rusiya tərəfindən ələ keçirilməsinin vacibliyini göstərirdi.[5]

XVIII əsrin sonlarında iri dövlətlərin Cənubi Qafqaza olan diqqəti bir müddət azalmışdı. Avropada baş verən hadisələr təkcə Rusiyanın deyil, Osmanlı

---

[1] Osmanlı Devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri. Cilt II. Ankara: 1993, s. 72-74.

[2] AKAK, т. I. Тифлис: 1866, док. 184, с. 219-220.

[3] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 261.

[4] Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке, с. 157.

[5] Там же, с. 173.

dövlətinin də diqqətində idi. XIX əsrin ilk illərindən Rusiya və İranın, habelə Osmanlı dövlətinin birbaşa, Avropa dövlətlərinin isə dolayı yolla siyasi fəallığının istiqamətləri dəyişir.

1801-ci il 12 sentyabr II Georgiyevsk müqaviləsi ilə Kartli-Kaxetidə çar hakimiyyəti ləğv edilir və Şərqi Gürcüstan Rusiyanın tərkibinə daxil edilir.[1]

1802-ci ildə Cənubi Qafqazda rus ordusunun baş komandanı K.Knorrinq gürcü əsilli P.Sisianovla əvəz olunur. Sisianovun əsas məqsədi "İrəvan yürüşünü başa çatdırmaq, bu vilayəti Rusiyanın tərkibinə daxil etmək, bununla da İran ilə baş verəcək gələcək müharibə"də hərbi əməliyyat meydanını Gürcüstan sərhədlərindən uzaqlaşdırmaq idi. Sisianov 1804-cü ilin mayında rus qoşunlarını İrəvan xanlığının sərhədinə yeridir. O, hərbi-strateji əhəmiyyətə malik olan İrəvan xanlığını ələ keçirmək, bununla da Rusiyanın regionda gələcək hegemonluğu üçün zəmin hazırlamaq, Türkiyə və İran sərhədlərində keçilməz sədd yaratmaq istəyirdi.[2]

Beləliklə, İrəvan xanlığını müxtəlif yollarla özünə tabe etməyə çalışan gürcü çarı hətta Rusiya imperiyasının gücündən də bu məqsəd üçün istifadə etməyə çalışırdı. Bunun nəticələrini açıqlığı ilə dərk edən İrəvan xanları gürcülərdən qorunmaq üçün həm ayrı-ayrı xanlıqların, həm də ələlxüsus Osmanlı imperiyasının himayəsindən istifadə edir, xanlığın müstəqilliyini qoruyurdular.

Üçüncü fəsil **"İkinci Rusiya-İran müharibəsi dövründə İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri"** adlanır. Bu fəsil 4 yarımfəsildən ibarətdir.

III fəslin 1-ci yarımfəsli "Çar Rusiyası hərbi qüvvələrinin İrəvan xanlığına qarşı hərbi əməliyyatlarının başlanması" adlanır. Burada göstərilir ki, XIX əsrin ikinci onilliyində Rusiya, Türkiyə və İranın xarici siyasətində Azərbaycan məsələsi qalmaqda davam edirdi. Cənubi Azərbaycanın işğalı, Abbas Mirzənin uğursuzluqları Türkiyə sultanını narahat edirdi. Sultan hər vasitə ilə Rusiyanın təzyiqinə qarşı çıxırdı. Osmanlı imperiyası Rusiya ilə İran arasında sülh müqaviləsi bağlanmasını istəmirdi. Çünki sülh müqaviləsinin bağlanması Azərbaycan kimi bir ərazinin rusların əlinə keçməsinin təsdiqlənməsi demək idi.[3]

Rusiyanın 1812-ci ildə Napoleon üzərində qələbə çalması və həmin ildə Osmanlı dövləti ilə Buxarest sülhünü imzalaması səbəbindən siyasi vəziyyət xeyli dəyişir. Qacarlar qərb "müttəfiqlərini" itirir və sülhün imzalanması ilə razılaşmaq məcburiyyətində qalır. Nəticədə Rusiya, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Cənubi Qafqazı ələ keçirmiş olur.

XIX əsrin əvvəlində İrəvan xanlığına qarşı rus qoşunlarının keçirdiyi hərbi əməliyyatlar çoxsaylı dağıntılara səbəb olmuşdu. Əhalinin öz yerlərini tərk etməsi səbəbindən xanlığın iqtisadi, hərbi və siyasi qüdrətinə böyük zərbə dəymiş-

[1] Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке, с. 252.

[2] Həmidova Ş.P. XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: 2014, s. 90.

[3] Paşayeva E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi. Bakı: 2004, s. 80.

di. Bəzən İrəvan xanı özü də əhalini qırğın və qarətlərdən xilas etmək üçün bütün əmlakı ilə bir yerdən başqa yerə köçürürdü.[1]

I Nikolay Rusiya qoşunlarının Qafqazdakı baş komandanı Yermolova nəyin bahasına olursa-olsun İrəvan və Sərdarabad qalalarını ələ keçirməyin vacibliyini bildirirdi.

Ruslar xanlığın bəzi ərazilərinin Rusiyaya məxsusluğunu iddia edərək Gil, Zod və Göyçənin şərqinə olan maraqlarını gizlətmirlər. Hətta Göyçənin şərq hissəsinə görə Qafan və Mehridən imtina etməyə hazır idilər.[2]

1826-cı il iyulun 16-da İrəvan xanının qoşunları əks-hücuma keçərək Şirək bölgəsinə və Şörəyilə daxil olur.[3] Həmin gün İrəvan xanı 5 minlik qoşunla Tiflis piyada alayının komandiri knyaz Seversamidzeni Şirək düşərgəsindən geri çəkilməyə məcbur etdi və 150 nəfər əsir götürdü.[4] Seversamidzenin dəstələri Pəmbək və Şörəyildən də çıxarıldı. Hüseyn xan və Həsən xan rus qoşunlarını tutduqları ərazilərdən qovdular. Sentyabrın 21-nə kimi davam edən döyüşlərdə ruslar xeyli itki verdilər.[5] Qeyd edək ki, I Nikolay İrəvan xanlığına qarşı hərbi yürüşə başlamaq haqqında 1826-cı il avqustun 1-də fərman vermişdi. İrəvan xanlığını tutmaq üçün Yermolov və Paskeviçin rəyi əsasında 1826-cı ilin sonunda iki işğal layihəsi hazırlanmışdı. Çar Yermolovun layihəsini təsdiq etmişdi. Amma ruslar tutduqları əraziləri itirdiklərindən bu planın icrası baş tutmadı. Sentyabrda yeni qüvvələr alan ruslar irəliləyişə nail oldular. Paskeviç ilk həmləni Sərdarabadın cənub hissəsindən başladı. Ayın 18-dən başlayaraq qala top atəşinə tutuldu. İki gündən sonra Paskeviçin əsas qüvvələri qalaya daxil oldu. Ələ keçirilən sursat İrəvanın işğalında istifadə olunmuşdur.

Məğlubiyyətə baxmayaraq, xanın qoşunları müqavimət göstərməkdə davam edirdilər. Əsas məsələ İrəvanın mühasirəsi idi. Həsən xan Sərdarabadı tərk etdikdən sonra İrəvan qalasının möhkəmləndirilməsi işini daha da gücləndirdi. İrəvan qalasının içərisində toplar quruldu.[6]

III fəslin 2-ci yarımfəsli "Xanlığın çar Rusiyası işğalçılarına qarşı mübarizəsi və Osmanlı imperiyası ilə əlaqələri" adlanır. 1826-1828-ci illər Rusiya ilə Qacarlar İranı arasında baş vermiş müharibə ərəfəsində İrəvan xanlığının siyasi

---

[1] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 326.

[2] AKAK, т. VI, ч.I. Тифлис: 1874, док. 1370, 891-892

[3] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 328.

[4] Щербатов М. Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность, т. II. Санкт-Петербург: 1890, с. 37.

[5] Гизетти А.А. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско-горской, персидских, турецких и в Закаспийском крае. 1801-1885. Тифлис: 1901, с. 144.

[6] Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: 2004, s. 169.

durumu böhran içərisində idi. Kəndlər dağılmış, əhalinin çox hissəsi öz yaşayış yerlərini tərk etmiş, əkin sahələri yararsız hala düşmüşdü.

Hüseynqulu xan rus qoşunlarına qarşı mübarizə aparmaq üçün işə İrəvan qalasının möhkəmləndirilməsindən başladı. Rus qoşunlarının hücumu zamanı Hüseynqulu xan qoşunların yerini tez-tez dəyişirdi. Bu da rus qoşunlarının çaşqınlıq içərisində geri çəkilmələrinə səbəb olurdu.

Qacarlar çalışırdılar ki, Rusiya ilə Türkiyə arasında müharibə başlasa, Cənubi Qafqazda itirilmiş ərazilərin əvəzində Türkiyə ilə sərhəd rayonlar hesabına yeni torpaqlar əldə etsinlər. Bitərəf olduğunu göstərməyə çalışan rus hökuməti İrandakı nümayəndələrinə belə bir göstəriş vermişdi: ”...işi elə qurun ki, İranı türklər əleyhinə qaldırmaqda bizi günahlandıra bilməsinlər.[1]

1821-1823-cü illər İran-Türkiyə müharibəsində Qriboyedov mühüm rol oynamışdı. O, 1828-ci ildə yazırdı: ”Yaxşı olar ki, biz onu (Abbas Mirzəni – Ş.M.) türklərə qarşı silahlandıraq... Mən 1821-ci ildə bunu uğurla həyata keçirdim”.[2]

1821-1823-cü illərdə Osmanlı-Qacar müharibəsi zamanı İrəvan xanlığı daha çox Qacarların tərəfində idi. Bu, əsasən qohumluq əlaqələri ilə bağlı idi.[3] Köçəri kürd tayfalarının sərhədləri qayda-qanunsuz keçməsi də münasibətləri kəskinləşdirirdi.[4] Osmanlı mənbələrinə görə belə nəticəyə gəlmək olar ki, Hüseynqulu xan Osmanlı və Qacarlar arasında vasitəçi rolunu da oynamışdır.[5]

1827-ci ildə ruslar İrəvan qalasını mühasirədə saxlayarkən qalanın ətrafında yaşayan 300 nəfər əkinçi Qars yaxınlığında Qurudərəyə keçərək, burada sığınacaq istəyir.[6] Qalasının mühasirəsi zamanı Hüseynqulu xan Qars mühafizi Qalib paşaya ruslara hər hansı köməyin göstərilməməsini də rica edir.[7]

Ümumiyyətlə, II Rusiya-İran müharibəsi zamanı rusların İrəvan qalasına olan hücumları zamanı İrəvan əhalisi çıxış yolunu Osmanlı dövlətinin sərhəd ərazilərinə keçməkdə görürdülər.

Bu fəslin 3-cü yarımfəslində İrəvan qalasının qəhrəmancasına müdafiəsi və süqutunda erməni xəyanətinin rolu məsələsi araşdırılır. Burada göstərilir ki, tarixdə Azərbaycanın əleyhinə nə baş vermişdisə, ermənilərin xeyrinə olmuşdu. II Rusiya-İran müharibəsinin gedişində İrəvan qalasının mühasirəsi zamanı da ermənilər xəyanət yolu ilə istəklərinə nail ola bilmişdilər.

---

[1] Sadıqov H.H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi. (1787-1829-cu illər). Bakı: 1991, s.106.

[2] Şükürov K.K. Türkmənçay 1828. Tarixi xronika. Bakı: 200628-29.

[3] Гезалова Г. О последнем Иреванском хане – Гусейнгули хане Гаджаре // Известия НАН, серия история, философия и права. 2009. №12, с. 62.

[4] Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, s. 259.

[5] Azərbaycan tarixi arxiv sənədlərində. XVIII-XX əsrin əvvəllərində. II cild. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin Sənədləri. Bakı: 2012, s. 35-50.

[6] BOA, Hatti-Hümayun, nr. 772/36207 C.

[7] BOA, Hatti-Hümayun, nr. 772/36207 İ.

1826-1828-ci illər II Rusiya-İran müharibəsində Rusiyanın işğalçılıq niyyətlərini gizlətməyə çalışan rus müəlliflərinin fikirlərini təkzib edən mənbələrdə – Qafqaz baş qərargahının arxivindən tapılmış 1826-cı ilə aid 39 saylı sənəddə müharibənin əvvəldən Rusiya tərəfindən hazırlandığı göstərilir. Planı 1826-cı ildə Peterburqda baron Dibiç tərtib etmiş və onun məzmunu barədə Qafqazın ali baş komandanı A.Yermolova və İ.Paskeviçə məlumat verilmişdir.

1827-ci il kampaniyası rus ordusunun hücumu ilə başlandı. İrəvan istiqamətində gürcü və erməni könüllü dəstələri də vuruşurdu.[1] Səkkiz günlük mühasirədən sonra sentyabrın 20-də ruslar üç tərəfdən şəhərə hücum etdilər. Şəhərdəki ermənilər Qacarların mövqeləri haqqında Paskeviçi məlumatlandırırdılar. Ermənilər qalanın ələ keçirilməsi üçün əllərindən gələni edirdilər.

Hər tərəfdən təcrid olunduğunu və müdafiənin mümkünsüzlüyünü anlayan Hüseynqulu xan Türkiyə tərəfə çəkildi. Qalanın müdafiəsinə isə qardaşı Həsən xan başçılıq edirdi.[2]

Paskeviçin əmri ilə qala divarlarının dibindəki kəhrizlər daşla dolduruldu. Qalanın müdafiəçiləri əks cavablar versələr də, qaladakı xəyanətkar ermənilər ruslarla əlaqəyə girərək, vəziyyəti daha da ağırlaşdırdılar. Erməni casusları Paskeviçlə əlaqə yaradıb, qala müdafiəçilərinin mövqeyi, sayı, topların yerləşdirildiyi yerlər və s. barədə bütün hərbi sirləri ona çatdırırdılar. Qalanın müdafiəçiləri sırasında təcrübəli topçuların olmaması, bəzi topların arxasında duran ermənilər topu ruslara deyil, boş yerə atırdılar.[3]

C.Qlinkanın şəhadətinə görə ermənilər qala divarlarının üstünə qalxıb papaqlarını yellədə-yellədə təslim olduqları barədə işğalçılara işarə verdikləri halda,[4] qalanın azərbaycanlı əhalisi özlərinin qədim şəhərini qəhrəmancasına müdafiə etməkdə davam edirdilər.[5] Sentyabrın 30-dan oktyabrın 1-nə keçən gecə qala divarları bütün mövqelərdən atəşə tutulanda Həsən xanın əmri ilə qala müdafiəçiləri rus qoşunlarını yenidən güclü atəşə tutdu. Lakin bu istənilən nəticəni vermədi. Çünki qaladakı ermənilər işğalçılarla əlaqəyə girərək qiyam qaldırdılar və Həsən xandan tələb etdilər ki, qalanı ruslara təslim etsin. Ermənilər xanın bütün səylərinə baxmayaraq, qalanın üzərində ağ bayraq qaldıraraq qalanın şimal qapılarını rus qoşunlarının üzünə açdılar.[6] Ermənilərin xəyanəti nəticəsində şəhərin qərb tərəfində yerləşən Təpəbaşı adlanan məhəlləni tutmağa hazırlaşan ruslar Zəngi çayını keçərək, orada batareya qurdular. Məhz 6 günlük mühasirədən sonra həmin hissədən qala divarları dağıdıldı və 6 qvardiya alayı

---

[1] Paşayeva E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi, s. 118.

[2] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 346.

[3] Еникoлoпов И.К. Грибоедов и восток. Ереван: 1954, с. 86.

[4] Галоян Г. Россия и народы Закавказья. Москва: 1976, с. 164.

[5] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 348.

[6] Yenə orada, s. 348.

şəhərə daxil ola bildi.[1] Şəhərdə qanlı döyüş baş verdi.

Həsən xan İrəvan qalasının süqutundan sonra dörd ay Tiflisdə saxlanıldı və Türkmənçay müqaviləsinin XIII maddəsinə əsasən, əsirlərin azad edilməsi şərtinə görə azad edildi. Hüseynqulu xan isə İranda qaldı. O, 1834-cü ildə vəfat etdi.[2]

Erməni müəlliflərindən olan Nersisyanın verdiyi məlumata görə İrəvan qalasının süqutunda şəhərdə olan ermənilərin rolu böyük olmuşdur. Bir çox üzdəniraq erməni tarixçiləri kimi Nersisyan da İrəvan xanlığının işğalını "Şərqi Ermənistan"ın azadlığı kimi dəyərləndirir.[3]

Paskeviçin əmri ilə 1827-ci il oktyabrın 2-də İrəvan qalasının işğalı ilə bağlı rus qoşunlarının "qələbə" paradı keçirildi. Parad zamanı İrəvanın qala divarlarının bir hissəsi uçaraq çoxlu sayda rus əsgərini məhv etdi.[4]

V.Potto hadisənin şahidi olan bir nəfərin dediklərini olduğu kimi yazırdı: "Mən qalanın cənub-şərq küncünə çatarkən divar və bürclərin dağıntısına təəccübləndim. Mənə elə gəlir ki, mühasirə artilleriyasının dörd gündə etdiyini çərxi-fələk dörd əsrdə belə edə bilməzdi".[5]

Erməni xəyanəti nəticəsində əldə olunan bu "qələbəyə" görə Paskeviç 1 mln. rubl mükafat və qraf titulu aldı. Bundan əlavə Paskeviç Abbasabadın alınmasına görə 1-ci dərəcəli Müqəddəs Vladimir ordeni, İrəvanın alınmasına görə 2-ci dərəcəli Georgi ordeni ilə təltif edildi. [6] Məhz onun sayəsində ermənilər Qafqazda bir çox arzularını həyata keçirə bildilər.

İrəvanda Krassovskinin rəhbərliyi ilə müvəqqəti hökumət təşkil edildi. Nerses həmin hökumətin üzvü seçildi. onların açıq antimüsəlman siyasəti hətta ermənipərəst Paskeviçi əlavə tədbir görməyə vadar etdi. O, baş Qərargah rəisinə göndərdiyi məktubunda yazırdı: Mən təsəvvür etməzdim ki, Krassovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayacaq, əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara ögey baxacaq.[7]

Türkmənçay müqaviləsinin imzalanmasından sonra "Erməni vilayəti" idarəsinin rəisi vəzifəsinə yerli qoşunların komandanı general-mayor, gürcü knyazı A.Çavçavadze təyin edilmişdi.[8] İrəvan qalasının alınması münasibətilə xüsusi medallar təsis olundu[9] və imperiyaya sadiq qalan rus generalları həmin me-

---

[1] Ениколопов И.К. Грибоедов и восток, с. 86.

[2] Şükürov K.K. Türkmənçay 1828. Tarixi xronika. Bakı: 2006, s. 134.

[3] Нерсисян М.Г. Из истории русско-армянских отношений. Кн. вторая. Ереван: 1961, с. 67.

[4] Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.III, с. 517.

[5] Там же, с. 516.

[6] Там же, с. 591.

[7] АКАК, т. VII, Тифлис: 1878, док. 438, с. 487-488.

[8] Там же, с. 489.

[9] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 351, 370-371.

dallarla təltif edildi. İrəvan xanlığının işğalı ilə Şimali Azərbaycanın bütün ərazisi Rusiyanın tərkibinə qatıldı.

Beləliklə, müharibəyə hərtərəfli hazırlaşan Rusiya imperiyası İrəvan qalasını ələ keçirmək üçün bütün vasitələrdən istifadə etdi. Burada qüvvələr qeyri-bərabər idi. Kiçik bir xanlıq böyük bir imperiyaya qarşı savaşda tək qaldı və dövrünə görə müasir silahlarla təchiz olunmuş imperiya ordusuna məğlub oldu. Amma bu məğlubiyyətin mühüm səbəblərindən biri də qalada və ətrafda yeni məskunlaşmış ermənilərin xəyanəti idi. Onlar həm rusların xeyrinə casusluq edir, həm də qalanın ruslara təslim edilməsi üçün hər şey edirdilər.

Bu fəslin sonuncu yarımfəsli "İrəvan və Naxçıvan xanlıqları ərazisində erməni vilayətinin yaradılması. Ermənilərin kütləvi surətdə İrəvan xanlığının ərazisinə və Şimali Azərbaycanın digər torpaqlarına köçürülməsi" adlanır. Burada göstərilir ki, hələ XVIII əsrin 20-ci illərində Rusiya erməniləri Azərbaycan torpaqlarına, o cümlədən Xəzərsahili vilayətlərə köçürərkən bu regionda təkcə xristian dayaq mərkəzləri yaradılması məqsədi güdmür, həm də onlardan Osmanlı imperiyasına qarşı mübarizədə istifadə etməyi nəzərdə tuturdu. Rusiyanın həmin niyyətindən isə ermənilər öz xeyirləri üçün istifadə etməyə çalışırdılar. Ermənilər hələ 1722-ci il dekabrın 22-də yazırdılar "...İrəvan İran torpaqlarının açarıdır və bizim niyyətimiz İrəvan qalasını ələ keçirməkdir. Əgər o bizim əlimizdə olarsa, nə türklər, nə də iranlılar bizə heç nə edə bilməyəcəklər".[1]

II Yekaterinanın hakimiyyətə gəlməsi ilə isə (1762-1796) ermənilərə münasibət dəyişmişdi.[2] Rusiya imperiyası Şərqə doğru daha da irəliləmək, isti dənizlərə yol açmaq üçün Cənubi Qafqazda özünə etnik dayaq yaratmaq üçün qonşu ölkələrdən erməniləri işğal etdiyi Azərbaycan torpaqlarına – İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə köçürməyə başladı.[3] Ermənilərin köçürülməsi ilə Qafqazın etnosiyasi xəritəsi dəyişir və ermənilər əsas faktora çevrilir.[4]

Rusiya erməniləri Azərbaycana köçürməklə onlardan Osmanlı imperiyasına qarşı istifadə etmək istəyirdi. I Pyotrun dövründən mövcud olan "erməni məsələsi" XVIII əsrin II yarısında yenidən Rusiya siyasətində canlanmağa başladı. Dəqiq desək, "erməni məsələsi" II Yekaterinanın "erməni çarlığının" yaradılması siyasəti ilə davam etdirilirdi.

1828-ci il fevralın 10(22)-da Cənubi Azərbaycanda, Təbriz yaxınlığında Türkmənçay kəndində Rusiya ilə İran müharibələrinin sonu olaraq sülh müqaviləsi imzalandı. Bu müqavilənin bağlanması ilə həmin dövlətlər arasında 1813-cü il 12 oktyabr tarixli Gülüstan müqaviləsi qüvvədən düşmüş hesab olunur. Üçüncü maddədə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya ilhaqı təsdiq-

---

[1] Nəcəfli G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri, s. 93.

[2] Kərimova S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bakı: 1995, s. 65.

[3] Mahmudov Y.M. Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi bir baxış). Bakı: 2008, s. 16.

[4] Марджанлы М. Армянство. Россия. Кавказ. Москва: 2010, с. 14.

lənirdi. I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının əsasında "Erməni vilayəti" yaradıldı. Çavçavadze həmin vilayətə rəis təyin edildi.[1]

Qeyd etmək lazımdır ki, İrəvan vilayəti 1828-ci ilə qədər 80 faiz müsəlmanlardan ibarət olmuşdur. Paskeviç hələ o dövrdə yazmışdı ki, İrəvan vilayətində 10 min müsəlman ailəsi, 3000 erməni ailəsi yaşamışdır.[2]

1827-ci il ərzində İrəvan xanlığını tərk edən müsəlmanların sayı 8700 ailə olmuş, əvəzində 10708 erməni ailəsi İran və Türkiyədən İrəvan əyalətinə köçürülmüşdü. Ermənilərin Rusiyanın işğal etdiyi torpaqlara köçürülməsində və İranda onların maraqlarının müdafiəsində A.Qriboyedov əsas rol oynamışdı.

Deyilənləri yekunlaşdıraraq, qeyd etmək olar ki, XVIII əsrin II yarısı– XIX əsrin əvvəllərində İrəvan xanlığının Osmanlı dövləti ilə münasibətləri Osmanlı dövlətinin zəiflədiyi, Rusiyanın isə Cənubi Qafqaz siyasətinin gücləndiyi dövrə təsadüf edirdi. Odur ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının öz müstəqilliyi uğrunda apardığı ədalətli mübarizəyə baxmayaraq, xanlıq nəinki bölgədə özünün güclü tərəfdaşını tapa bildi, hətta Osmanlı dövləti kimi müttəfiqinin çar Rusiyası tərəfindən məğlub olması nəticəsində ermənilərin həmin əraziyə köçürülməsi ilə gələcəkdə buranın yerli əhalisi olan azərbaycanlıların etnik təmizlənməsinin təməli qoyuldu və onlar Osmanlı dövlətinin gələcək taleyində öz mənfi rollarını oynadılar.

Dissertasiyanın nəticə hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

---

1 Şükürov K.K. Türkmənçay 1828. Tarixi xronika. Bakı: 2006, s. 79

2 Kərimova S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu, s. 116.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələri tarixinin Osmanlı mənbələri üzrə araşdırılması // Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri. 2014, cild 51, s. 50-57.
2. XVIII.-XX. Yüzyıllarda tarihi Azerbaycan toprağı – İrevan hanlığı`nın arazisine ermenilerin goç ettirilme politikası // Atatürk Araştırma Dergisi. Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu. Atatürk Araştırma Merkezi. Cilt XXXI. Bahar 2015. Sayı 91, s. 69-92;
3. İrəvan xanlığının Osmanlı imperiyası ilə əlaqələrinin mənbə və tarixşünaslıq məsələləri // Bakı Avrasiya Universiteti. Sivilizasiya elmi-nəzəri jurnalı. №6, 2015, s. 113-118;
4. XVIII əsrin II yarısında İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələrində Rusiya-Gürcüstan amili // Gəncə Dövlət Universitetinin Xəbərləri. Fundamental, Humanitar və Təbiət elmləri seriyası. №2. Gəncə, 2016, s.206-214;
5. XIX-XX əsrlərdə ermənilərin tarixi Azərbaycan torpağı – İrəvan xanlığı ərazisinə köçürülməsi siyasəti və nəticələri // "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları"na həsr olunmuş IV beynəlxalq elmi konfransın materialları. Azərbaycan MEA Tarix İnstitutu. Elmi əsərlər. Xüsusi buraxılış. №64,65,66. Bakı: 2017. , s. 322-330.

*Mustafayev Shohrat Rustam oghlu*

## Relations of the Irevan Khanate with the Ottoman Empire

## SUMMARY

The thesis consists of the introduction, four chapters, eight paragraphs, conclusion, list of the used sources and literature.

In the introduction is substantiated the actuality of the topic, choice of the chronological frames, thoroughly discussed the source base and the historiography of the problem, determined the goals and objectives, the practical importance and scientific novelty of the investigation.

In the first chapter of the thesis, entitled "The place and role of the Irevan khanate in the history of the Azerbaijani statehood", consisting of three paragraphs, on the basis of a large number of sources described the issues of the formation of the khanate, its territory, population and borders, relations of the Irevan khanate with the other khanates of Azerbaijan in the second half of the 18th century, foreign policy of the Irevan khanate in the second half of the 18th century, as well as its relationship with the Ottoman Empire.

In the second chapter of the thesis consisting of three paragraphs "Relations of the Irevan khanate with the Ottoman Empire during the first Russo-Persian War" the following questions are being discussed: the Irevan khanate in the conquest plans of Tsarist Russia of the South Caucasus, the occupation policy of the Georgian kingdom against the Irevan khanate, the relations of the khanate with the Ottoman Empire to protect against Russo-Georgian aggression.

In the third chapter of the thesis "Relations of the Irevan khanate with the Ottoman Empire during the second Russo-Persian War", consisting of four paragraphs, the following issues are highlighted: the beginning of military operations against the Irevan khanate of the armed forces of Tsarist Russia, the struggle of the khanate against the invaders of Tsarist Russia and the relations with the Ottoman Empire, the heroic defense of the Irevan fortress and the role of the Armenian treachery in its fall, the creation of the "Armenian region" in the territories of the Irevan and Nakhchivan khanates, mass migration of Armenians to the territory these khanates and to the other lands of Northern Azerbaijan.

In the conclusion have been summed up the results of the research.

*Мустафаев Шохрат Рустам оглу*

**Взаимосвязи Ireванского ханства с Османской империей**

## РЕЗЮМЕ

Представленная к защите диссертационная работа посвящена изучению связей между Иреванским ханством и Османской империей во второй половине XVIII– начала XIX вв.

Диссертационная работа состоит из введения, четырех глав, 8 параграфов, заключения, списка использованных источников и литературы.

Во введении диссертации обоснованы актуальность темы, выбор хронологических рубежей, обстоятельно проанализированы источниковая база и историография проблемы, определены цели и задачи, практическая значимость и новшества исследования.

В первой главе диссертации, озаглавленной «Место и роль Иреванского ханства в истории Азербайджанской государственности», состоящей из трех параграфов, на основе большого количества источников описываются вопросы возникновения ханства, территории, населения и границы, связи Иреванского ханства с другими ханствами Азербайджана во второй половине XVIII века, внешняя политика Иреванского ханства во второй половине XVIII века, а также его связи с Османской империей.

Во второй главе диссертации «Связи Иреванского ханства с Османской империей в период первой русско-иранской войны», состоящей из трех параграфов, исследуются следующие вопросы: Иреванское ханство в захватнических планах царской России Южного Кавказа, оккупационная политика грузинского царства в отношении Иреванского ханства, связи ханства с Османской империей для защиты от российско-грузинской агрессии.

В третьей главе диссертации «Связи Иреванского ханства с Османской империей в период второй русско-иранской войны», состоящей из четырех параграфов, освещаются такие вопросы, как начало военных операций против Иреванского ханства вооруженных сил царской России, борьба ханства против оккупантов царской России и связи с Османской империей, героическая защита Иреванской крепости и роль армянского предательства в ее падении, создание «армянской области» на территории Иреванского и Нахчыванского ханств, массовое переселение армян на территорию этих ханств и на другие земли Северного Азербайджана.

В заключении работы обобщены и подытожены основные результаты и выводы диссертационной работы.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
“Turxan” NPM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ШОХРАТ РУСТАМ оглу МУСТАФАЕВ**

# ВЗАИМОСВЯЗИ ИРЕВАНСКОГО ХАНСТВА С ОСМАНСКОЙ ИМПЕРИЕЙ

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**Баку – 2017**